# AZƏRBAYCANIN MEHRİBAN SİMASI

**Bugünlərdə Azərbaycan ədəbi ictimaiyyətinə maraqlı, həm də kifayət qədər samballı bir kitab təqdim olunub. "Təhsil" nəşriyyatında yüksək poleoqrafiya mədəniyyəti və keyfiyyətilə biz oxuculara təqdim olunan kitabın adından da göründüyü kimi, kitabda söhbət Azərbaycanın birinci xanımı, Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadan gedir. Kitabın elmi direktoru akademik Nizami Cəfərovdur.**

Kitabın müəllifi isə siyasi elmlər doktoru, professor Vaqif Abdullayevdir. Bu günə qədər müxtəlif siyasi ədəbiyyat nümunələrilə oxucuların görüşünə gəlmiş Vaqif Abdullayev özünün oxucu dairəsini yarada bilmişdi. Ona görə də professor Vaqif Abdullayevin bu kitabı da həmin böyük yaradıcılıq işinin mükəmməl davamıdır. Kitabın ən önəmli cəhətlərindən biri odur ki, buradakı 5 fəslin hər birində Birinci vitse-prezident Mehriban xanım Əliyeva adi vətəndaşlıqdan Birinci vitse-prezidentliyə qədər keçdiyi yolda bir Azərbaycan xanımı kimi zaman-zaman cəmiyyətə nüfuz etmək, seçilmək, önə çıxmaq keyfiyyətləri ilə diqqəti çəkir. Onun ictimai-siyasi müstəvidəki fəaliyyəti öz bazası ilə həm istedadını, həm də dünya siyasətinə qatılmaq məharətini büruzə verir. Açıq şəkildə görünür ki, Mehriban xanım Əliyeva Azərbaycanda qadın hərəkatının önündə getməklə bərabər, həm də müasir Azərbaycan qadınının bitkin obrazının ifadəçisidir.

Professor Vaqif Abdullayevin kitabında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın siyasi həyatındakı ilk addımları, onun Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri, həmçinin ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri kimi göstərdiyi qətiyyət, atdığı addımlar həm tarixilik baxımından, həm də müasirlik prizmasından diqqətçəkən və təqdirəlayiqdir.

Bu mənada məhz Heydər Əliyev Fondunun rəhbəri olduğu zaman kəsiyində Mehriban xanım Əliyevanın gördüyü işlər hər kəsə müsbət təsir göstərməklə yanaşı, həm də bir sevinc, qürur hissi yaşadır. Yeri gəlmişkən, onu da xatırladım ki, bu kitabda Mehriban xanım Əliyevanın həm Azərbaycanın daxilində, həm də onun hüdudlarından kənarda bir dövlət adamı, həm xanım rəhbər kimi atdığı addımlar, göstərdiyi əməli fəaliyyət demək olar ki, zaman ardıcıllığıyla öz əksin tapıbdı. Yəni istər Azərbaycan mədəniyyətinə, muğamına göstərilən diqqət, istər kimsəsiz uşaqlara, qaçqın və əlillərə, müharibə veteranlarına, Azərbaycanın mədəniyyət, ədəbiyyat, incəsənət xadimlərinə göstərilən böyük diqqət və qayğının təşəbbüskarı da, onu idarəedən də məhz Mehriban xanım Əliyevadır. Bütün bunlar da adı çəkilən kitabda öz əksini tapıbdı.




**Bir-birindən maraqlı fotolar, müxtəlif mərasimlərdən çəkilmiş görüntülər oxucuda Mehriban xanım Əliyevanın bir dövlət adamı kimi göstərdiyi xidmətlərinə sevgi hissi oyadır. Bu da təbiidir. Çünki Azərbaycanın Birinci vitse-prezidenti bir xanım rəhbər olaraq dinimizə, əxlaqımıza, bütövlükdə xalqımıza təmənnasız, həm də ən yüksək səviyyədə qayğı göstərir. Bu da öz növbəsində insanların ona olan sevgisini artırır. Bax, bütün bunlar da siyasi elmlər doktoru, professor Vaqif Abdullayevin kitabında öz əksini tapıbdı. Düşünürük ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevadan bəhs edən kitab oxucuların diqqətini çəkməklə onların stolüstü kitabına çevriləcəkdir.**

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət 2019.- 7 dekabr.- S.6.